## MÜNDƏRİCAT


Müəllif haqqında ........ 9

- Ön söz ........ 15
- Axmağı tanımaq ........ 25
- Cahil və axmaq "oyana" bilərmi? ........ 29
- Cahilin dostu olurmu? ........ 33
- Məntiqi şübhəyə (Reasonable Doubt) fanatik baxışı ........ 37
- Niyə elmlə məşğul oluruq? ........ 41
- Bir daha elmlə məşğul olmaq barədə… ........ 45
- Yaradıcılıq, yoxsa problemin diaqnozlaşdırılması? ........ 49
- Elmi düşüncədən kasad xalqın bədbəxt əsirləri ........ 53
- Elm və cəmiyyət münasibətləri haqqında ........ 57
- İrqçilik haqqında ........ 61
- Həqiqəti axtarmaq: Elmlə bəşəriyyətin görüşdüyü yer... 65
- Məlumatın qiymətləndirilməsi ........ 69
- Savadlı düşüncədən məhrum olan xalqdan seçkilərdə nə gözləmək olar? ........ 73
- Elmin təcrübədə faydası və nağılçı Osmanlı tarixinin zərərləri ........ 77
- "Osmanlı imperiyasında elm var idimi?" sualı və nəticələri ........ 81
- İslam və elm ........ 85
- Cəhalətin əsərləri ........ 89

- Cəmiyyətin əxlaqı yoxa çıxanda .......................................... 93
- Sibel Kəkilli və savadlı düşünə bilən bir cəmiyyət olmaq .... 97
- Sibel Kəkillinin xatırlatdığı şeylər ........................................ 101
- Pornoqrafiya saytları və saysız-hesabsız faydaları haqqında ................................................................................ 105
- Fərziyyənin zərərləri və Türkiyədə insan münasibətləri .. 109
- Hər şəhərdə universitet açmaq məsələsi ilə əlaqədar ...... 113
- Cəhənnəmdəki universitetlilər ............................................ 117
- Fanatiklər dünyasında universitet? .................................... 121
- Xarici dil öyrənilməsi, Türkiyədə öyrənmə və kölələik mentaliteti haqqında ........................................................... 124
- Universitet muxtariyyəti, elm və elmi keyfiyyət ............... 128
- Bir daha universitetlərin muxtariyyəti haqqında ............. 132
- Universitet adamı rədd etməsin! ......................................... 136
- Unamuno kimi rektor olmağı bacarmaq ............................ 140
- Təlim-tərbiyə ........................................................................... 144
- Təhsil-tədqiqat əlaqələri və elmin inkişafı .......................... 148
- Dinə əsaslanan təhsil Türkiyənin üzləşdiyi ən böyük təhlükədir ................................................................................. 152
- Elitist təhsil şərtdir ................................................................ 156
- Elit düşmənçiliyinin at oynatdığı ölkə ............................... 160
- Dünyanın, bəlkə də, ən vacib problemi: elitizm düşmənçiliyi ........................................................................... 164
- Türkiyədə qanunlara baxışın dini əsasları .......................... 168
- Ağıllı dizaynlar uzun müddət davam edə bilərmi? ........... 172
- “Ağıllı dizayn” elm deyildir ................................................... 176
- İnsan olmağın çətinliyi .......................................................... 180

- Ağıl olmayanda! ............ 184
- Darvin türklər haqqında nə demişdi? ............ 188
- Standartlar, Göte və cahillə söhbət ............ 192
- Təkamül etikası ............ 196
- Uçmaq: təkamüldə uğurun sirri ............ 200
- Təkamül, Marks və Türkiyədə savadsızlıqla mübarizə ..... 203
- Darvinist fizikanın ilahiyyat və sosial elmlərə təsiri ......... 213
- Fanatikin böyük qələbəsi: anlayış qarışıqlığı ............ 217
- Demokratiya allergiyası ............ 221
- Yeni Orlean fəlakəti, demokratiya və nadan siyasətçilər .. 228
- Bilik və dünyagörüşünün faydaları, demokratiyanın zərərləri ............ 233
- Oxlokratiyanın əhali siyasəti ............ 237
- Elm, çevriliş və çevriliş düşmənləri (!) ............ 240
- Atatürk inqilabları insan olmaq layihəsinin addımlarıdır.... 246
- Yaddaş ............ 251
- Otuz doqquzuncu ildə qalan ziyalılıq ............ 255
- Milli bayramlarımızdan qorxan bəşəriyyət düşmənləri... 259
- Müqəddəs (!) Kirili tanıyaq ............ 263
- Bir məqalə, senzura və onun səbəbləri ............ 267
- İrtica ilə mübarizə ............ 272
- İrtica ilə mübarizə üsulları ............ 276
- İrticanın demokratik bir ölkədə mübarizə metodları....... 280
- Degenerasiyaya məruz qalmış demokratiyada irtica ilə mübarizə ............ 284

# Müəllif haqqında

**A.M. Cəlal Şəngör** 24 mart 1955-ci ildə İstanbulda anadan olub. 1973-cü ildə Robert Akademiyasını, 1978-ci ildə Albany Universitetini (Nyu-York Dövlət Universiteti) geoloq kimi bitirib. Həmin universitetin 1979-cu ildə magistri, 1982-ci ildə isə doktoru olub. 1981-ci ildə İTU-nun Dağ-mədən fakültəsinin Ümumi geologiya kafedrasının assistenti olub. 1984-cü ildə London Geologiya Cəmiyyətinin "Prezident Mükafatı"na, 1986-cı ildə TÜBİTAK-ın "Elm Mükafatı"na layiq görülüb. Həmin il İTU-nun Dağ-mədən fakültəsinin Ümumi geologiya kafedrasının dosenti vəzifəsinə təyin olunub. 1988-ci ildə Neuşatel Universitetinin Elmlər fakültəsinin fəxri elmlər doktoru dərəcəsini (*Docteur ès Sciences Horis causa*) alıb. 1990-cı ildə Avropa akademiyasının (*Academia Europaea*) ilk türk üzvü seçilib, elə həmin il Avstriya Geoloji Xidmətinin müxbir üzvü, 1991-ci ildə isə Avstriya Geologiya Cəmiyyətinin fəxri üzvü olub. 1991-ci ildə Mədəniyyət Nazirliyinin "Bilik dövrü mükafatı"nı qazanıb. 1992-ci ildə İTU-nin Dağ-mədən fakültəsinin Ümumi geologiya kafedrasının professoru vəzifəsinə yüksəlib. 1993-cü ildə Türkiyə Elmlər Akademiyasının qurucu üzvü olub və akademiya şurasına

üzv seçilib. Elə həmin il TÜBİTAK Elm Şurasının üzvü olub. 1994-cü ildə Rusiya Təbiət Elmləri Akademiyasının üzvü və Fransa və Amerika Geologiya Cəmiyyətlərinin fəxri üzvü seçilib. Həmçinin Fransa Fizika Cəmiyyəti və "*Ecole Normale Supérieure"* Fondu tərəfindən Rammal medalı ilə təltif edilib. 1997-ci ildə Fransa Elmlər Akademiyası tərəfindən geoelmlər sahəsində böyük mükafata (*Lutaud Prize*) layiq görülüb. 1998-ci ilin may ayında Şəngör *Collège de France*-da qonaq professor kimi kurs verib. Burada o, "XIX əsrdə fransız geoloqlarının tektonikanın inkişafına verdiyi töhfələr" mövzusunda mühazirə oxuyub və 1998-ci il mayın 28-də "*Kollec de Frans"* medalını alıb. 1999-cu ildə London Geologiya Cəmiyyəti onu "*Bigsby"* medalı ilə təltif edib. 2000-ci ilin aprelində ABŞ Milli Elmlər Akademiyasının xarici üzvü seçilən ilk türk kimi tarixə düşüb. 2004–2005-ci tədris ilində Cəlal Şəngör Fransa Kollecində "Beynəlxalq kafedra"nın ("*Chaire internationale*") professoru olub və 2005-ci il martın 20-də ona ikinci dəfə "*Collège de France*" medalı təqdim edilib. 2006-cı ildə üç il müddətinə Parisdəki Milli Təbiət Tarixi Muzeyinin fəxri üzvü və Rusiya Elmlər Akademiyasının xarici üzvü seçilib. 2014-cü ildə Leopoldina Almaniya Milli Elmlər Akademiyasının, 2015-ci ildə isə Avstriya Elmlər Akademiyasının üzvü seçilib. 2009-cu ildə Londondakı Təbiət Tarixi Muzeyi Şəngörü fəxri tədqiqatçı təyin edib və elə həmin il dünyanın altıncı ən yaxşı universiteti sayılan Çikaqo Universiteti ona fəxri elmlər doktoru adı verib. 2010-cu ilin oktyabrında Almaniyanın bir geoalimə verdiyi ən yüksək mükafat olan *Steinmann* medalına layiq görülüb. 2017-ci ildə Amerika Geologiya Cəmiyyətinin Tarix və Elm Fəlsəfəsi Departamentindən "Meri

C. Rabbitt" mükafatını, 2011-ci ildə Avropa Geoelmlər Birliyinin bərk maddə üzrə ən yüksək medalı olan "*Artur Holms*" medalını alıb. Şəngör Fransa Kollecindən başqa İngiltərədə Oksford (*Royal Society* təqaüdü ilə), ABŞ-də Kaliforniya Texnologiya İnstitutunda (*Moore Distinguished School* olaraq) və Avstriyada Salzburg-Lodron-Paris universitetlərində qonaq professor kimi fəaliyyət göstərib.

Şəngör geologiya, xüsusən də struktur geologiyası və tektonika sahəsindəki araşdırmaları ilə məşhurluq qazanıb. Bu mövzuda 17 kitabı, 262 elmi məqaləsi, 217 tezisi, 74 elmi-populyar məqaləsi; tarix və fəlsəfəyə aid 13 məşhur kitabı və 500-dən çox essesi nəşr olunub. 1997–1998-ci illərdə "Cumhuriyyət elm və texnika" *("Cümhuriyyet Bilim Teknik")* jurnalında "Zümrüd əkslər" rubrikasında çap olunan yazıları 1999-cu ildə "Yapı Kredi Mədəniyyət və İncəsənət" nəşriyyatı tərəfindən "Zümrüdnamə" adı altında toplu halında çap edilib. 2003-cü ildə isə esselərindən ibarət "Zümrüd güzgü" adlı kitabı nəşr olunub. Həyat və yaradıcılığını əhatə edən kitab isə 2010-cu ildə "Türkiyə İş Bankası Mədəniyyət" nəşriyyatı tərəfindən müsahibə üslubu ilə tərtib olunmuş "Elm adamının macərası" sərlövhəsi ilə nəşr edilib. Şəngör, eyni zamanda, bir çox beynəlxalq jurnallarda redaktor, redaktor köməkçisi və redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərib və göstərməkdədir.

Şəngör 1986-cı ildə Oya Maltəpə ilə ailə qurub. Onun yeganə oğlu H.C.Asim Şəngör 1989-cu ildə dünyaya gəlib. Cəlal Şəngör ingilis, alman və fransız dillərini bilir.

*Mənə insan zəkasının, insan ağlının və
insan biliyinin kainatda bildiyimiz ən dəyərli şeylər
olduğunu və bəşəriyyətin əmin-amanlığının axmağa və
nadana vəzifə və səlahiyyət verməməkdən asılı olduğunu
öyrədən müəllimlərim, böyük elm adamları və Böyük
Britaniya İmperiyasının son nəslinin
görkəmli nümayəndələri*

KEVİN ÇARLZ ANTONİ BÖRK

*və*

CON FREDERİK DYUİ

*üçün ən səmimi minnətdarlıq hisslərimlə...*

# Ön söz

Kitabıma sərlövhədəki “axmaq” sözünün nə demək olduğunu izah etməklə başlamaq istərdim. Bu məqsədlə məndə olan müxtəlif lüğətləri vərəqləyib onun hansı mənada işləndiyini qeyd etdim: İntellektual inkişafdan geri qalmış; xarakteri və bununla bağlı olaraq ağlı yaxşı inkişaf etməmiş; ümumi intellektual – zehni səviyyədə normala yaxın, lakin normadan zəif (şəxs); intellektual cəhətdən geri qalmış, istiqaməti qeyri-müəyyən (şəxs); axmaq; səfeh; ağılsız; küt; hərəkətlərinə fikir verməkdə aciz; tərbiyəsiz; acgöz; özünü axmaq yerinə qoyan və s. Bir çox hallarda bu söz təhqiramiz məna daşımaqla müəyyən yersiz davranışa cavab olaraq çağırış, adlanma və təhqir kimi də işlənir.

Məni “axmaq” sözünün bu gün işlənən mənası maraqlandırdığından, Osmanlı lüğətlərinə və ya daha köhnə lüğətlərə baxmağı lazımsız hesab etdim. Baxdığım bütün lüğətlər “axmaq” sözünün iki mənasında həmfikirdir: birincisi, zəka və/və yaxud ağıl baxımından müəyyən orta səviyyədən aşağı olan şəxsdir, yəni sifətdir. İkinci-

si, təhqir və ya alçaltma ifadə edən çağırışdır. Bu kitabda heç kimi təhqir etmək və ya alçaltmaq fikrim olmadığı üçün "axmaq" sözünü sifət kimi işlədirəm. Bu söz yuxarıda yazılan birinci mənasındadır. Birinci izahın ən gözəl və ən qənaətbəxş tərifini Pars Tuğlacı və Yaşar Çağbayırın lüğətlərində tapmaq mümkündür ki, onlar da intellektual səviyyəsi yaxşı inkişaf etməmiş və bəzən də küt, görüb-götürməmiş mənasında izah edirlər.

Bununla belə, hər iki lüğətdə axmaqlığın tərifində intellekt anlayışına istinad edilir. İntellektin tərifi isə son dərəcə çətindir. Ola bilsin, bunu ən ümumi şəkildə "fərdin yaradıcılığı və dərk edərək öyrənmək qabiliyyəti, bu qabiliyyəti yadda saxlayacaq hafizə və bu qabiliyyətdən istifadə sürəti" kimi təyin etmək olar. Bunları kəmiyyətcə ifadə edə bilən ölçü ilk dəfə 1912-ci ildə alman psixoloqu Vilyam Lui Ştern (1871–1938) tərəfindən "*Die psychologischen Methoden der Intelligenzprüfung und deren Anwendung an Schulkindern*" (= Zəkanın ölçülməsinin psixoloji üsulları və onların məktəbli uşaqlarda tətbiqi: İohann Ambrosius Bart, Leypsik V+105 s.) adlı kiçik kitabda işlənərək *Intelligenz-Quotient* adlandırılıb. Daha sonra IQ (ay-kü) kimi qısaldılmış şəkildə geniş yayılan bu termini "intellekt qabiliyyətinin kəmiyyət göstəricisi" kimi tərcümə etmək olar. Bu kəmiyyət göstəricisi insanın orta intellektual səviyyəsini 100, bu dəyər ətrafında standart sapmanı isə 15 bal olaraq qəbul edir.